**Milli Televiziya və Radio Şurasının**
**2020-ci il üzrə**
**M A L İ Y Y Ə   H E S A B A T I**

Milli Televiziya və Radio Şurasına hesabat ilində illik plana əsasən Dövlət büdcəsindən 1 364 581,00 (Bir milyon üç yüz altmış dörd min beş yüz səksən bir) manat vəsait ayrılması nəzərdə tutlmuş lakin dürüstləşmiş büdcə kimi Dövlət büdcəsindən 1 326 663,00 (bİr milyon üç yüz iyirmi altı min altı yüz altmış üç) manat vəsait ayrılmışdır.

İl ərzində büdcədən maliyyələşdirilmiş vəsaitin isə 1 226 205,48 (bir milyon iki yüz iyirmi altı min iki yüz beş manat qırx səkkiz qəpik) manatı təyinatı üzrə istifadə olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2020-ci il tarixli sərəncamına əsasən Azərbaycanda fəaliyyət göstərən özəl ümumölkə teleradio yayımçılarına "Azerspace-1" peyki və digər vasitələrlə yayım həyata keçirməsinə əlavə dəstək verilməsi məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasına 3 000 000 (üç milyon) manat vəsait ayrılmış və altı özəl telekanalın hesabına köşürülmüşdür.

Dövlət büdcəsindən maliyyələşmiş vəsaitdən 39 327,52 (otuz doqquz min üç yüz iyirmi yeddi manat əlli iki qəpik) vəsait büdcəyə qaytarılmışdır.

Maliyyə şöbəsi tərəfindən Dövlət büdcəsindən ayrılmış vəsaitə uyğun ştat cədvəli tərtib edilərək Maliyyə Nazirliyinə təqdim olunmuşdur. Müvafiq olaraq hər ayın əvvəlində tələbata və verilmiş limitə uyğun xərc maddələri üzrə Maliyyə Nazirliyinə sifariş, xəzinələrarası köçürmə sərəncamı və məxaric cədvəlləri təqdim olunmuş və nazirliklə razılaşdırıldıqdan sonra açılmış kreditdən istifadə olunmuşdur.

2020-ci ilin yanvar ayından etibarən 8 saylı Xəzinədarlıq Agentyilinə növbəti ayın maliyyələşməsi açıldıqdan sonra malların (iş və xidmətlərin) alışı, kassa xərclərinin sifarişi və ödəniş tapşırıqları lazımi xərc və tələbata uyğun xəzinədarlığa təqdim olunmuşdur. Hər ay təsdiq olunmuş ştat cədvəlinə, iş vaxtının uçot tabelinə və əmək haqqı cədvəlinə uyğun işçilərə əmək haqqı və mükafatlar vaxtında ödənilmişdir. Əmək haqqından tutulmuş üzvlük haqqı Həmkarlar İttifaqları Konfederasiyasına, həmçinin digər məcburi ödənişlər (Dövlət Sosial Müdafiə Fonduna, İşsizlikdən sığorta haqqı və vergilər) də vaxtında ödənilmişdir. Xərc maddələri üzrə; rabitə xərcləri, işıqdan, sudan istifadəyə görə ödəniş, poçt, bank xidmətləri vaxtında həyata keçirilmişdir. Hesabat ilində limitə uyğun lazımi texniki və istehsal vəsaitləri və avadanlıqlar alınmışdır.

Rüblük və illik hesabatlar, həmçinin, Milli Mühasibat Uçotu Standartlarına uyğun formalarla da Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

Milli Televiziya və Radio Şurası 02 noyabr 2020-ci il tarixli 009 saylı Sərəncamına əsasən 28.12.2020 tarixinə mal-material qiymətlilərinin inventarizasiyası aparılmış, köhnəlmiş, istifadəyə yararsız inventarlar, mal-materiallar dəyərlilərinin silinməsi aktı tərtib olunmuşdur.

Maliyyə şöbəsi tərəfindən hər ay yerli Statistika Orqanına, Məşğulluq İdarəsinə, hər rübün axırında Hesablama Palatasına, Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinə, Maliyyə Nazirliyinə, illik hesabatlar isə Əmlak Komitəsinə vaxtında təqdim olunmuşdur.

Ştatdankənar işçilərin (ekspert qrupu) fəaliyyət göstərməsi üçün maliyyələşmə açılmış və təyinatı üzrə istifadə olunmuşdur.

## Milli Televiziya və Radio Şurasının
## 2020-ci ildə xərc maddələri üzrə maliyyələşmə
## və faktiki xərcləri cədvəli

| Xərclərin adı | Maddə | İllik plan 2020 (əsas) | İllik plan 2020 (Dürüst-ləşmiş) | Cəmi illik maliyyə-ləşmə | İllik istifadə | 28.12.20 tarixə faktiki qalıq | Plan qalığı |
|---|---|---|---|---|---|---|---|
| Ştatda olan işçilərin əmək haqqı | **211100** | 689324,00 | 689324,00 | 663000,00 | 652719,09 | 10280,91 | 26324,00 |
| Ştatdan kənar işçilərin əmək haqqı | **211200** | 35136,00 | 35136,00 | 35136,00 | 34770,00 | 366,00 | 0,00 |
| Əməyin ödənişi ilə bağlı digər pul ödənişləri | **211900** | 167480,00 | 167480,00 | 158950,00 | 158388,84 | 561,16 | 8530,00 |
| Məcburi dövlət sosial sığorta haqları | **212100** | 188497,00 | 188497,00 | 182117,00 | 178443,75 | 3673,25 | 6380,00 |
| İcbari dövlət sığortası | **212200** | 1700,00 | 1700,00 | 1700,00 | 974,91 | 725,09 | 0,00 |
| İşsizlikdən sığorta | **212400** | 3035,00 | 3035,00 | 3035,00 | 2962,98 | 72,02 | 0,00 |
| Dəftərxana və təsərrüfat xərcləri | **221100** | 16673,00 | 13338,00 | 13338,00 | 13236,26 | 101,74 | 0,00 |
| Mətbəə məhsulları üzrə xərclər | **221200** | 2000,00 | 1600,00 | 1600,00 | 1600,00 | 0,00 | 0,00 |
| Yanacaq və sürtgü materiallarının alınması | **221300** | 18298,00 | 18298,00 | 16317,00 | 10483,08 | 5833,92 | 1981,00 |
| Digər malların alınması | **221900** | 5229,00 | 4183,00 | 4183,00 | 4180,40 | 2,60 | 0,00 |
| Tikili və avadanlıqların cari təmir xərcləri | **222110** | 26000,00 | 24000,00 | 24000,00 | 22456,82 | 1543,18 | 0,00 |
| Nəqliyyat vasitələrinin cari təmir xərcləri | **222120** | 4676,00 | 3741,00 | 3741,00 | 3733,99 | 7,01 | 0,00 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Elektrik enerjisi haqqının ödənməsi | **222210** | 6500,00 | 6500,00 | 6500,00 | 6487,20 | 12,80 | 0,00 |
| Qaz haqqının ödənilməsi | **222220** | 100,00 | 100,00 | 100,00 | 100,00 | 0,00 | 0,00 |
| Su haqqının ödənilməsi | **222230** | 850,00 | 850,00 | 850,00 | 850,00 | 0,00 | 0,00 |
| Kanalizasiya xidmətləri haqqının ödənilməsi | **222240** | 850,00 | 850,00 | 850,00 | 850,00 | 0,00 | 0,00 |
| İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi | **222250** | 4164,00 | 4164,00 | 4164,00 | 4027,77 | 136,23 | 0,00 |
| Digər kommunal xidmətləri haqqının ödənilməsi | **222290** | 1764,00 | 1764,00 | 1764,00 | 1764,00 | 0,00 | 0,00 |
| Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi | **222311** | 3230,00 | 3230,00 | 3230,00 | 3229,11 | 0,89 | 0,00 |
| Beynəlxalq telefon danışıq haqlarının ödənilməsi | **222312** | 200,00 | 200,00 | 200,00 | 159,65 | 40,35 | 0,00 |
| Poçt xidmətləri haqqının ödənilməsi | **222320** | 1000,00 | 1000,00 | 1000,00 | 999,54 | 0,46 | 0,00 |
| İnternet xidmətləri haqqının ödənilməsi | **222330** | 14388,00 | 14388,00 | 14388,00 | 13254,40 | 1133,60 | 0,00 |
| İcarə və muzdlu xidmətlər | **222410** | 6600,00 | 6600,00 | 6600,00 | 4886,00 | 1714,00 | 0,00 |
| Mühafizə xərcləri | **222430** | 53734,00 | 53734,00 | 53734,00 | 53690,76 | 43,24 | 0,00 |
| Əsas fondlara xidmət haqqı xərcləri | **222441** | 9000,00 | 9000,00 | 9000,00 | 8329,00 | 671,00 | 0,00 |
| Sanitariya-gigiyena və digər xidmət haqqı xərcləri | **222442** | 601,00 | 601,00 | 601,00 | 600,52 | 0,48 | 0,00 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Ölkədaxili ezamiyyətlər | **222510** | 4320,00 | 1837,00 | 1654,00 | 260,00 | 1394,00 | 183,00 |
| Xarici ezamiyyətlər | **222520** | 24200,00 | 4692,00 | 4692,00 | - | 4692,00 | |
| Nəqliyyat vasitələri, avadanlıqlar üzrə xidmət haqlarının ödənilməsi | **222600** | 800,00 | 800,00 | 800,00 | 648,00 | 152,00 | 0,00 |
| İstehlak yönlü müxtəlif xidmətlər | **222920** | 13190,00 | 10552,00 | 10552,00 | 10534,69 | 17,31 | 0,00 |
| Bank xidmətləri haqqının ödənilməsi | **222941** | 3385,00 | 3385,00 | 3385,00 | 2439,59 | 945,41 | 0,00 |
| Sair xərclər | **222990** | 13720,00 | 12348,00 | 12348,00 | 10314,35 | 2033,65 | 0,00 |
| Əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinət | **271220** | 4000,00 | 4000,00 | 4000,00 | 2571,78 | 1428,22 | 0,00 |
| Fəxri adlara görə təqaüd | **272510** | 1200,00 | 1200,00 | 1200,00 | 1200,00 | 0,00 | 0,00 |
| Dövlət qulluqçularına ödənişlər | **279100** | 17732,00 | 17732,00 | - | - | 0,00 | 17732,00 |
| Maşın və avadanlıqlar | **311150** | 15000,00 | 12000,00 | 12000,00 | 10255,00 | 1745,00 | 0,00 |
| Sair torpaq, tikili və avadanlıqlar | **311900** | 5000,00 | 4000,00 | 4000,00 | 4000,00 | 0,00 | 0,00 |
| Qeyri-maddi aktivlər | **314000** | 1005,00 | 804,00 | 804,00 | 804,00 | 0,00 | 0,00 |
| **CƏMİ:** | | **1364581,00** | **1326663,00** | **1265533,00** | **1226205,48** | **39327,52** | **61130,00** |